1_Layout 1 13.09.2018 16:29 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 18 (534)

15 sentyabr 2018-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

## MÜSTƏQİL SİYASƏT KURSU AZƏRBAYCANIN ETİBARLI TƏRƏFDAŞ MÖVQEYİNİ MÖHKƏMLƏNDİRİB

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəyə rəhbərlik etdiyi ilk gündən Azərbaycanın müasir dövlətə çevrilməsini və tam müstəqil siyasət yürütməsini milli ideyanın başlıca hədəfi kimi müəyyənləşdirib. Ölkəmiz dünya birliyində sözünü qətiyyətlə deyir, milli maraqlarını prinsipiallıqla qoruyur. Müstəqil siyasət kursu dünya birliyi üçün açıq ölkəyə çevrilən Azərbaycanın mövqelərini günbəgün daha da möhkəmləndirir. Sizlərə ixtisarla təqdim etdiyimiz jurnalist Rəşad Baxşəliyevin "Azərbaycan" qəzetində bu mövzuda dərc olunan məqaləsi olduqca maraqlı məqamlara aydınlıq gətirir.***



**Ölkəmiz dünya birliyində sözünü qətiyyətlə deyir, milli maraqlarını prinsipiallıqla qoruyur**

Sabit və uğurlu inkişafı ilə dünya düzənində özünəməxsus yer tutan Azərbaycan həm də tam müstəqil siyasət yürüdən dövlət kimi tanınır.

Cənubi Qafqaz regionu və onun ən perspektivli ölkəsi olan Azərbaycan qlobal, regional və regiondankənar qüvvələrin böyük diqqət mərkəzində saxladığı məkandır. Bu baxımdan, son illərdə ölkəmizin rolu əhəmiyyətli dərəcədə artmaqdadır. Bu gün qlobal və regional səviyyədə geosiyasi gücə çevrilməyə çalışan hər hansı bir dövlət regionun qabaqcıl ölkəsi olan Azərbaycanla mövcud olan münasibətlərini daha da gücləndirməyi prioritet məsələ hesab edir.

**Bərabərhüquqlu, konstruktiv münasibətlər**

Prezident İlham Əliyev ölkəyə rəhbərlik etdiyi ilk gündən Azərbaycanın müasir dövlətə çevrilməsini və tam müstəqil siyasət yürütməsini milli ideyanın başlıca hədəfi kimi müəyyənləşdirib. Dövlət başçısı Azərbaycanı qüdrətli ölkəyə çevirmək məqsədini sadəcə deklarativ bəyanatlarla ifadə etmir, onun konkret icra mexanizmlərinin müəyyənləşdirilməsi istiqamətində də mühüm addımlar atır.

Fəaliyyətini daim ictimai inam və etimadı doğrultmaq məramı üzərində quran, hakimiyyətin mütəmadi olaraq gördüyü işlərlə bağlı xalqa hesabat verməsini idarəçilikdə mütərəqqi ənənə kimi formalaşdıran Prezident İlham Əliyev respublikamızın iqtisadi müstəqilliyini də möhkəmləndirib.

Azərbaycanın həm də bir çox ölkələrlə bərabərhüquqlu, konstruktiv münasibətləri mövcuddur.

**Dünya birliyi üçün açıq ölkəyə çevrilən Azərbaycan**

Prezident İlham Əliyevin son 15 il ərzində yürütdüyü uğurlu diplomatiya sayəsində dünya siyasətinə təsir imkanları getdikcə artan Azərbaycan hər keçən gün tərəfdaşlarının sayını artırır və demək olar ki, dünya birliyi üçün açıq ölkəyə çevrilir.

Bu bir həqiqətdir ki, dövlət başçısı ötən 15 ildə dünya siyasətinə əsaslı təsir imkanları olan ölkələrlə qarşılıqlı faydalı əməkdaşlığı genişləndirmək, inkişaf etdirmək, beynəlxalq təşkilatlarda Azərbaycanın mövqelərini gücləndirmək istiqamətində sistemli fəaliyyət göstərir. Dünyanın siyasi liderləri arasında böyük nüfuz qazanmış İlham Əliyevin milli maraqlara əsaslanan xarici siyasət strategiyasının prioritet istiqamətini nüfuzlu dövlətlərlə və beynəlxalq təşkilatlarla bərabərhüquqlu tərəfdaşlıq, çoxvektorlu əməkdaşlıq təşkil edir.

**Beynəlxalq təşkilatlarla münasibətlər yeni mərhələyə qədəm qoyub**

Təkcə son 8 ayda ölkəmizə səfər edən dövlət və hökumət başçıları ilə Prezident İlham Əliyevin keçirdiyi görüşlərə, verilən bəyanatlara nəzər yetirsək, aydın şəkildə görərik ki, Azərbaycan dövlətinin yürütdüyü tam müstəqil siyasət respublikamızın nüfuzunu əhəmiyyətli dərəcədə yüksəldib.

Eləcə də Prezident İlham Əliyevin xarici səfərləri, iştirak etdiyi beynəlxalq toplantılar Azərbaycanın siyasətinin kifayət qədər uğurlu, düşünülmüş və çoxşaxəli olduğunu, dövlətin və xalqın maraqlarına layiqincə xidmət etdiyini göstərir. Hər bir səfər Azərbaycanın ayrı-ayrı dövlətlərlə və təşkilatlarla ikitərəfli və çoxtərəfli əlaqələrinin daha da genişlənməsinə təkan verir.

Yanvar ayında Dünya İqtisadi Forumunda iştirak edən dövlət başçısı burada keçirilən interaktiv iclaslarda bir daha Azərbaycan həqiqətlərini dünyaya bəyan etdi. İyul ayında Avropa İttifaqı və Azərbaycanın münasibətlərini keyfiyyətcə yeni mərhələyə daşıyan sənədin paraflanması, NATO-nun Brüssel Sammitində



qəbul edilən yekun kommunikedə Azərbaycanın ərazi bütövlüyünün və sərhəd toxunulmazlığının xüsusi olaraq qeyd edilməsi isə bir daha təsdiq etdi ki, beynəlxalq təşkilatlarla Azərbaycanın münasibətləri keyfiyyətcə yeni mərhələyə qədəm qoymaqdadır və bu da əlbəttə ki, Azərbaycanın beynəlxalq münasibətlər sistemində yerini və rolunu daha da möhkəmləndirir.

**Avropa İttifaqı üçün mühüm ölkə**

İyul ayında isə İlham Əliyevin Avropa İttifaqının əsas güc sahibləri olan İtaliya və Fransa prezidentləri ilə keçirdiyi görüşlər, imzalanan yeni sənədlər Azərbaycanın bu ölkələrlə münasibətlərini daha da möhkəmləndirmiş oldu.

Öncə iyulun 18-də İtaliya Prezidenti Sercio Mattarella bu ölkənin Azərbaycana səfər edən ilk Prezidenti kimi adını iki dövlətin siyasi tarixinə yazdırdı. İki gün sonra Azərbaycanın dövlət başçısı Fransa Prezidenti Emmanuel Makronun dəvəti ilə bu ölkəyə səfər etdi. Avqustun 25-də isə Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkel ölkəmizdə birgünlük səfərdə oldu.

Beləliklə, son 2 ay ərzində Avropanın üç böyük dövləti ilə Azərbaycanın mövcud münasibətləri bir qədər də şaxələndi. İmzalanan yeni müqavilələr iqtisadi münasibətlərin daha da dərinləşməsinə real zəmin yaratdı.

Azərbaycan dünyanın 180-ə yaxın ölkəsi ilə diplomatik münasibətlər qurub. Bu münasibətlər xarici ölkələrdə və beynəlxalq təşkilatlar yanında 91 diplomatik missiya təsis etməsi fonunda baş verib. Hazırda Bakıda 53 səfirlik, 4 baş konsulluq, 12 fəxri konsulluq və 12 beynəlxalq təşkilatın daimi nümayəndəliyi fəaliyyət göstərir.

**Daim inkişafa, tərəqqiyə doğru**

Təhlillər göstərir ki, Azərbaycan regionun geosrateji rolunda aparıcı ölkədir, regional layihələrin əsas təşəbbüskarı və iştirakçısıdır. Əlbəttə ki, düzgün seçilən yol ölkəni daim inkişafa, tərəqqiyə aparır. İlham Əliyev isə bu yolu dəyərləndirərkən Azərbaycanın daim doğru yolda olduğunu qətiyyətlə vurğulayır: **"Biz düzgün yoldayıq. Bu gün Azərbaycan dünya miqyasında müasir, sürətlə inkişaf edən, gözəl, qonaqpərvər, ləyaqətli ölkə kimi tanınır. Biz artıq bütün dünyaya sübut etmişik ki, müstəqil həyat yaşaya bilərik, uğurla yaşaya bilərik. Biz gələcəkdə bu yolla gedəcəyik, müstəqil siyasət aparacağıq"**.

## Azərbaycan Respublikası vətəndaşlarının 2018-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədi ilə qərara alıram:

1. 2000-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1983–1999-cu illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2018-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2018-ci il oktyabrın 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 4 sentyabr 2018-ci il.

## DAXİLİ İŞLƏR NAZİRLİYİNİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI



**Respublikanın Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov sentyabrın 5-də Rusiya Federasiyasının ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikovu qəbul edib.**

Qonağı səmimiyyətlə salamlayan nazir yeni təyinat münasibətilə onu təbrik edib, təcrübəli diplomat kimi ona ölkəmizdəki xidməti fəaliyyəti müddətində uğurlar arzulayıb. Ölkələrimiz arasında ənənəvi dostluq münasibətlərinin əsrlər boyu mehribanlıq şəraitində və dinc yanaşı yaşayan xalqlarımızın mənafelərinə cavab verdiyi, hər iki ölkənin prezidentləri zati-aliləri cənab İlham Əliyevin və zati-aliləri cənab Vladimir Putinin dostluq münasibətlərinə və siyasi iradələrinə uyğun olaraq əməkdaşlığın bütün sahələrdə, o cümlədən iki dövlətin aidiyyəti orqanları arasında uğurla inkişaf etdiyi, bu günlərdə möhtərəm dövlət başçımızın Rusiya Federasiyasına rəsmi səfər etməsindən, orada aparılan danışıqlardan, imzalanan sənədlərdən sonra ikitərəfli əlaqələrin artıq strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi, daxili işlər nazirliklərini də sıx təmaslar və peşəkar əlaqələr birləşdirdiyi, səmərəli işbirliyinin ilbəil daha da möhkəmləndiyi bildirilib.

Daha sonra mövcud kriminogen durum, müstəqilliyin ilk illərində qarşılaşdığımız problemlər, Ermənistanın ölkəmizə təcavüzü nəticəsində torpaqlarımızın işğalı, Ulu Öndər Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə qayıdışından sonra cəmiyyətin bütün sahələrində, o cümlədən daxili işlər orqanlarında aparılan islahatlar, cinayətkarlıqla mübarizə və ictimai asayişin qorunması sahəsində qazanılan uğurlar barədə qonağa məlumat verilib.

Nazir cəmiyyət həyatının bütün sahələrində, o cümlədən daxili işlər orqanlarında həyata keçirilən islahatlar barədə danışıb, cinayətlərin qarşısının alınmasında ən müasir informasiya texnologiyalarının, xüsusən DİN-in "Təhlükəsiz şəhər" Xidmətinin və "102 Xidməti" Zəng Mərkəzinin imkanlarından da geniş istifadə olunduğunu vurğulayıb.

Azərbaycan Respublikası və Rusiya Federasiyası daxili işlər nazirliklərinin əlaqəli fəaliyyətinin hər iki ölkədə cinayətkarlıqla mübarizəyə, ictimai təhlükəsizliyin təmininə müsbət təsir göstərdiyini deyən nazir son illər qarşılıqlı faydalı işbirliyinin müxtəlif istiqamətlərində, xüsusən transmilli mütəşəkkil cinayətkarlığın növlərinə, o cümlədən, terrorçuluğa, narkotiklərin qanunsuz dövriyyəsinə, qeyri-leqal miqrasiyaya, insan alverinə qarşı mübarizədə, həmçinin, cinayətlərin açılması, axtarışda olanların tutulması, onların ekstradisiyası, sərhədyanı regionlarda birgə razılaşdırılmış tədbirlərin keçirilməsi, yüksək ixtisaslı kadrların hazırlanması sahələrində müsbət nəticələr qazanıldığını məmnunluqla xatırladıb.

Səfir Mixail Boçarnikov səmimi qəbula, ətraflı məlumata görə təşəkkür edərək daxili işlər nazirlikləri arasında əməkdaşlığın vəziyyətindən məmnunluğunu bildirib. O, hazırkı görüşün də ikitərəfli münasibətlərin yüksək səviyyəsindən xəbər verdiyini, qarşılıqlı faydalı işbirliyinin müsbət nəticələri olduğunu xatırladaraq, bütün sahələrdə əlaqələrin daha da genişləndirilməsi üçün səylərini əsirgəməyəcəyini vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər də müzakirə olunub.

2_Layout 1 13.09.2018 16:23 Page 1



## DAXİLİ QOŞUNLARIN DƏSTƏYİ İLƏ NÖVBƏTİ TƏHSİL OCAĞINDA GƏNCLƏRİN ÇAĞIRIŞAQƏDƏR HAZIRLIĞI KABİNETİ YARADILIB





Sentyabrın 12-də Bakı şəhəri, Səbail rayonu Həbib bəy Mahmudbəyov adına 2 nömrəli texniki-humanitar liseyinin binası yenidənqurmadan sonra istifadəyə verilib.

Liseydə Daxili İşlər Nazirliyinin Daxili Qoşunları tərəfindən gənclərin çağırışaqədər hazırlığı kabineti yaradılıb. Kabinetdə dövlət atributlarının təsviri olan və hərbi-vətənpərvərlik mövzularını əks etdirən stendlər, hərbi çarpayı (yataq dəsti ilə), əsgər dolabçası, gün növbətçisi postu quraşdırılıb. Bundan başqa, sinif otağında əşya, ərzaq, kimya və silah xidmətləri üzrə hərbi geyim nümunələri, səhra yemək dəstləri, əleyhqaz, dozaölçən cihaz, xüsusi vasitələrin daşınması üçün döşlük, polad dəbilqə, PSO-lu snayper tüfənginin maketi, şüşə vitrinlərdə isə hərbi ləvazimatlar yerləşdirilib. Bu ləvazimatlar hərbi hazırlıq fənninin tədrisi zamanı məktəblilərə ibtidai hərbi biliklərin aşılanmasında praktiki cəhətdən gərəkli olacaq.

**Bildirək ki, Texniki Humanitar Elmlər Liseyində Daxili Qoşunların dəstəyi ilə yaradılmış gənclərin çağırışaqədər hazırlığı kabineti təhsil müəssisələri arasında sayca yeddincidir. Ötən illərdə Sumqayıt şəhərinin 1, paytaxtın Səbail rayonunun 3, Qaradağ rayonunun 1, Suraxanı rayonunun 1 təhsil müəssisəsində analoji hərbi kabinetlər yaradılıb.**

**leytenant N.Ağayeva**

## İCTİMAİYYƏTLƏ TƏMASLAR İCTİMAİ NÜFUZ VƏ DƏSTƏYİ FORMALAŞDIRAN AMİLDİR

Yarandığı gündən bu günədək Daxili Qoşunlar ictimai təhlükəsizliyin keşiyində fədakarlıq nümunələri göstərərək, bu sahədə çox qiymətli xidməti təcrübə toplayıb. Daxili Qoşunların xidməti vəzifələrinin xüsusiyyətlərini nəzərə alsaq, qarşıya qoyulan tapşırıqların uğurla yerinə yetirilməsi baxımından ictimaiyyətlə təmasların da vacib rolunu inkar etmək olmaz. Beynəlxalq miqyasda aidiyyəti hərbi və xüsusi qurumların təcrübəsi də göstərir ki, ictimaiyyətlə təmasların və əməkdaşlığın düzgün qurulması xidməti fəaliyyətin həyata keçirilməsinə cəmiyyətin, geniş kütlələrin ciddi dəstəyini qazandırır. Ümumilikdə, istənilən cəmiyyətdə sabitlik faktoruna ictimai etimad mühiti böyük təsir göstərir. Bu gün ölkəmizdə ictimai-siyasi sabitlik hökm sürür. Bunun nəticəsində dövlətimiz uğurla inkişaf edir, onun hərbi, iqtisadi potensialı daha da möhkəmlənir. Torpaqlarının 20 faizi Ermənistanın hərbi təcavüzünə məruz qalmış ölkəmiz üçün sabitlik və inkişaf amilləri həyati əhəmiyyətli məsələdir. Xalqımız ötən əsrin 90-cı illərinin əvvəllərində yaşanan faciələri və təlatümləri unutmayıb və heç vaxt unutmayacaq. Ona görə də ölkə rəhbərliyinin dövlətçiliyimizin gücləndirilməsi yönündə gördüyü mühüm işlər xalqımızın mənafeyini ifadə edir və onun hərtərəfli dəstəyini qazanır.

Daxili Qoşunlarda xidməti fəaliyyətin ötən dövründə ictimaiyyətlə təmasların qurulmasına həmişə xüsusi diqqət yetirilib. Bu addımlar Daxili Qoşunların ictimaiyyətə dolğun tanıdılmasına, yerinə yetirilən vəzifələr barədə cəmiyyətdə düzgün və obyektiv təsəvvürün formalaşmasına, ictimai güvən qazanılmasına, gənclər arasında hərbi-vətənpərvərlik tərbiyəsinin təşkilinə, onların hərbi xidmətə marağının artırılmasına, ictimai təhlükəsizliyə qarşı təhdidlərin qarşısının alınmasında vətəndaşlarla əməkdaşlığın düzgün məcrada nizamlanmasına, cəmiyyətin ictimai nəbzinin öyrənilməsinə yönəlib.

Xalqımızın dəyərli ziyalıları - alimlər, yazıçılar, politoloqlar, mütəxəssislər, incəsənət ustaları ilə şəxsi heyətin görüşləri, dövlət qurumları, ictimai təşkilatların nümayəndələri ilə birgə tədbirlərin keçirilməsi, təhsil müəssisələrində hərbi hazırlıq siniflərinin qurulması, məktəblilər üçün yay-istirahət düşərgələrinin, hərbi hissələrə ekskursiyaların təşkili, şəhid ailələrinə maddi və mənəvi qayğı göstərilməsi, şəxsi heyətin mənəvi-psixoloji hazırlığında veteranların fəal iştirakının təmin olunması, muzeylər, kitabxanalar, yaradıcılıq birlikləri və mədəniyyət mərkəzləri, kinostudiyalar, telekanallar və radiolarla ardıcıl əməkdaşlığın qorunub saxlanması ictimaiyyətlə çoxşaxəli təmasların tərkib hissəsidir.

Daxili Qoşunların hərbi hissələrində "Açıq qapı" günləri də keçirilərək valideynlərin öz övladlarının hərbi xidməti, onlar üçün yaradılmış şəraitlə tanış olmalarına imkanlar yaradılır. Həmçinin, Daxili Qoşunların Komandanı müntəzəm olaraq əsgər valideynlərini qəbul edərək, onların müraciətlərini dinləyir və narahatlığa səbəb olan məsələlərin obyektiv və vaxtında həll edilməsi üçün müvafiq tapşırıqlar verir.

Bu gün gənclər arasında Daxili Qoşunlarda hərbi xidmət keçməyə böyük marağın olması, Daxili Qoşunların Ali Hərbi Məktəbinə qəbul olunmaq üçün müraciətlərin heç də azalmaması Daxili Qoşunların ictimaiyyət arasında nüfuzunun bariz göstəricisidir.

Daxili Qoşunların mətbuat xidməti tərəfindən kütləvi informasiya vasitələri ilə indiyədək qurulmuş işgüzar əlaqələr də şəffaflığa söykənir və xidməti fəaliyyətimizə dair məsələlərin düzgün işıqlandırılmasına öz töhfəsini verir. Mətbu orqanımız olan "Əsgər" qəzeti və qoşunların müvafiq internet səhifəsi ictimaiyyət üçün etibarlı informasiya mənbəyidir.

İctimaiyyətlə təmasların düzgün qurulması həm də fövqəladə vəziyyətlərdə, ekstremal hallarda mənəvi-psixoloji cəhətdən vacib rol oynayır. İctimai təhlükəsizliyin təmin olunması yönündə görülən tədbirlərə adekvat münasibət formalaşdırmağa zəmin yaradır.

Beləliklə, ictimaiyyətlə təmaslar məsələsində mövcud uğurlu təcrübəyə əsaslanaraq və bu amilin aktuallığını qoruyub saxlayacağını nəzərə alaraq, göstərilən istiqamətdə fəaliyyətin təkmilləşdirilməsi Daxili Qoşunların ictimai nüfuzunun daha da yüksəlməsinə xidmət edər.

**Yalçın Abbasov**

## YAPONİYADA "2020 TOKİYO OYUNLARI"NA HƏSR OLUNMUŞ TƏDBİR KEÇİRİLİB

**Sentyabr ayının 6-7-si tarixlərində Yaponiyanın paytaxtı Tokiyo şəhərində "2020 Tokiyo Oyunları"na həsr olunmuş beynəlxalq təhlükəsizlik konfransı keçirilib. Tədbirdə respublikamızı Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi polis general-mayoru Oqtay Kərimov və Daxili Qoşunların Qərargah rəisinin I müavini polkovnik İnqilab Muradov təmsil ediblər.**




Əvvəlcə tədbirin təntənəli açılış mərasimi təşkil olunub. Açılışdan sonra iştirakçılar Beynəlxalq Kommunikasiya Mərkəzilə tanış olublar. Daha sonra "2020 Tokiyo Oyunları"na ümumi baxış və oyunların təşkili üçün hökumətin təşkilati tədbirləri haqqında qonaqlar məlumatlandırılıb. Əsas etibarilə, tədbir zamanı təhlükəsizlik məsələləri və təhlükələrin qiymətləndirilməsi, beynəlxalq terrorizmə qarşı qabaqlayıcı tədbirlərin görülməsi, ictimai təhlükəsizliyin təmin olunması, kibertəhlükəsizliyə hazırlıq işlərinin görülməsi barədə maraqlı fikirlər səsləndirilib. Həmçinin, mütəşəkkil cinayətkarlığa qarşı mübarizə, sərhəd nəzarəti, gömrük işlərinin təşkili, miqrasiya tədbirlərinin görülməsi və nəqliyyat planlaşdırılmasının aparılması ətrafında çıxışlar dinlənilib və fikir mübadiləsi aparılıb.

**leytenant N.Ağayeva**

## ƏSGƏR YEMƏKXANASINDA BİŞİRİLƏN XÖRƏKLƏRİN KEYFİYYƏTİ TƏLƏBLƏRƏ TAM CAVAB VERİR

**Yüksək döyüş hazırlığını qoruyub saxlayan 25032 saylı hərbi hissənin komandanlığının diqqət yetirdiyi sahələrdən biri də şəxsi heyətin keyfiyyətli, kalorili qida məhsulları ilə qidalanmasıdır. Hərbi hissə komandanlığının daima ciddi nəzarətində olan əsgər yeməkxanasında bişirilən xörəklərin keyfiyyəti müvafiq tələblərə tam cavab verir.**

Hərbi hissənin Ərzaq xidmətindən məlumat verildi ki, şəxsi heyətin qida rasionunda əsasən milli təamlara üstünlük verilir. Həftə ərzində hərbi qulluqçulara I xörək yarmalı şorba, lobya şorbası, kələm borşu, düyü şorbası, noxud şorbası, II xörək olaraq isə qarabaşaq mal əti ilə, makaron mal əti ilə, plov mal əti ilə, kartof əzməsi mal əti ilə, kartof əzməsi mal əti konservası ilə, kartof əzməsi balıq qızartması ilə verilir. Bununla yanaşı, gündəlik olaraq vitamin, mövsümi salatlar və meyvə şirələri də qida rasionuna daxildir. Şəxsi heyətin qidalanmasının Daxili İşlər Nazirinin müvafiq əmrinin tələbləri əsasında aparıldığı bildirildi.

Qeyd olundu ki, qidaların keyfiyyətli hazırlanması Daxili Qoşunlar Komandanlığının qarşıya qoyduğu ən vacib tələblərdəndir. Bu məqsədlə, yeməklərin hazırlanması üzrə kurs keçmiş peşəkar əsgər aşpazlarla bərabər, işçi qadınların əməyindən də istifadə olunur. Sözsüz ki, peşəkar aşpazların əməyi ilə hazırlanan ləziz təamlar hərbi qulluqçuların damaqlarında dadlı izlər buraxır. Ərzaq xidmətindən qarşıla-



rında duran vəzifələrin öhdəsindən layiqincə gəldikləri, qidaların tələb olunan keyfiyyətdə hazırlandığı, eyni zamanda əsgər yeməkxanasında gigiyena qaydalarına ciddi əməl olunduğu nəzərə çatdırıldı.

Burada peşəkar aşpazlardan çavuş Nurlan Məmmədovun, əsgərlər Xaləddin Hətəmovun, Zahid Abbaslının, işçi qadınlardan Əfifə Fərəcovanın, İradə Səfərovanın və Sevinc Muradovanın adları vurğulandı.

**kapitan T.Əlizadə**

## FUNKSİONAL DİAQNOSTİKA ŞÖBƏSİ KEÇƏN AYIN YEKUNLARINA GÖRƏ FƏRQLƏNİB

**25 ildən artıq bir müddətdə şəxsi heyətin, hərbi qulluqçularımızın ailə üzvlərinin, veteranlarımızın sağlamlığı keşiyində duran 12576 saylı hərbi hissə - Hərbi Qospital öz uğurlu fəaliyyətini ildən-ilə təkmilləşdirir.**






Bu günlərdə "Əsgər" qəzetinin növbəti sayı üçün material hazırlamaq məqsədilə orada olarkən bunun bir daha şahidi oldum. Qospitalın bugünkü həyatı ilə bağlı maraqlı məlumatlar öyrənmək üçün hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant İlqar Həmidovla görüşdüm. Keçən zaman kəsiyində çox mühüm dəyişikliklərin, irəliləyişin olduğunu deyən polkovnik-leytenant İ.Həmidov bu illər ərzində Daxili Qoşunların Komandanlığı tərəfindən qospitalın inkişafına göstərilən diqqət və qayğını xüsusi vurğuladı. Bildirdi ki, qospitalın mövcud təchizatı, tibbi personalın yüksək ixtisas hazırlığı hərbi qulluqçularımıza keyfiyyətli şəkildə xidmət göstərməyə imkan verir.

Qospitalda öz profilinə uyğun fəaliyyət göstərən hər bir şöbənin uğurlarının ilin sonunda lazımi səviyyədə qiymətləndirildiyini nəzərimizə çatdıran polkovnik-leytenant İ.Həmidov söhbət əsnasında bu ilin avqust ayında qoşun xidməti və intizamın yekunlarına görə Funksional diaqnostika şöbəsinin qospitalın şöbə və xidmətləri arasında birinciliyi qazandığını sözlərinə əlavə etdi.

Funksional diaqnostika şöbəsi qospitalın ən böyük və təyinatı baxımından olduqca əhəmiyyətli şöbəsidir. Şöbə rəisi tibb xidməti mayoru Vəsilə Əsgərova burada bütün növ laborator və instrumental müayinələrin aparıldığını bildirdi. Laborator müayinələrdən qanın ümumi analizi, biokimyəvi, seroloji, revmatik sınaqlar, infeksiyalar, hormonların müayinəsi, sidik müayinəsi, elektrokardioqramma, exokardioqramma, rentgen (qrafioskopiya), endoskopiya, qarın boşluğu orqanlarının ultrasəs müayinəsi, aşağı və yuxarı ətrafların, qalxanvari vəzin və müxtəlif orqanların dopler müayinəsi aparılır. Qospitala gələn bütün xəstələr ilk olaraq Qəbul şöbəsində çeşidlənir və onlara verilən göndərişə əsasən Funksional diaqnostika şöbəsinin mütəxəssisləri tərəfindən müayinələrə cəlb olunurlar. Tibb xidməti mayoru V.Əsgərova şöbənin fəaliyyətindən danışarkən tabeliyindəki həkimlərin peşəkarlığını xüsusi olaraq vurğuladı. Əsas etibarilə gənclərdən ibarət olan kollektivdə nizam-intizam, həkimlərin və orta tibbi heyətin funksional vəzifələrinin icrasına məsuliyyətlə yanaşmasının sonda müsbət nəticələrə gətirdiyini dedi.

Funksional diaqnostika şöbəsinin rəisi tibb xidməti mayoru V.Əsgərova təcrübəli həkimdir. 2009-cu ildən Daxili Qoşunların Hərbi Qospitalında işləyir. 2016-cı ildən şöbənin rəisidir. Vəzifə borclarına vicdanlı münasibəti, təşkilatçılıq qabiliyyəti, işgüzarlığı nəzərə alınaraq ona bu etimad göstərilib. Öz peşəsini qəlbən sevdiyini, hərbi həkim olmasından qürur duyduğunu vurğuladı. O, şöbəyə daxil olan hər bir hərbi qulluqçunun qayğı ilə əhatə olunduğunu söylədi. Mayor V.Əsgərova 2013-cü ildə qardaş Türkiyədə məşhur Gülhanə Hərbi Tibb Akademiyasında ixtisasartırma kursu keçib. Tabeliyindəki həkimlərlə öz təcrübəsini bölüşür. O, şöbənin həkim, tibb bacıları, laborant və mülki işçilərinin iş və fərdi keyfiyyətlərinə yaxşı bələddir. Şöbə rəisi bu günədək dəfələrlə müxtəlif mükafatlara layiq görülüb.

Burada olarkən ilk diqqətimizi cəlb edən səliqə-sahman, müasir model tibbi avadanlıq və qurğular oldu. Bu avadanlıq vasitəsilə müayinələr zamanı dəqiq diaqnozlar qoyulur. Qəbul olan xəstələr həm planlı şəkildə, həm də xroniki vəziyyətlə bağlı olaraq müayinələrə cəlb olunurlar. Həmçinin, stasionarda olan ağır və nəzarətdə olan xəstələrin yerindəcə laborator və instrumental müayinələri aparılır (portativ aparatlarla). Laborant və texniklər növbətçi qrafikinə əsasən fəaliyyət göstərirlər. Yəni günün istənilən vaxtında burada xəstələr üçün lazımi şərait yaradılıb. Hərbi qulluqçularımızın sağlamlığının keşiyində dayanan, xəstələrə səmimi münasibət göstərən Funksional diaqnostika şöbəsinin bütün kollektivinə uğurlar diləyir, əldə etdikləri nailiyyətləri növbəti aylarda da təkrarlamağı arzulayırıq.

**leytenant N.Ağayeva**

3_Layout 1 13.09.2018 16:55 Page 1



# SANİTAR - EPİDEMİOLOGİYA DƏSTƏSİ VƏZİFƏ ÖHDƏLİKLƏRİNİN İCRASINA LAYİQİNCƏ YANAŞIR

***Daxili Qoşunların şəxsi heyəti arasında yoluxucu xəstəliklərin qarşısının alınması işində Tibb xidmətinin Sanitar-epidemiologiya dəstəsində daimi olaraq profilaktik tədbirlər görülür. Qarnizondaxili və bölgələrdə yerləşən hərbi hissələrdə mütəmadi olaraq yoxlamalar aparılır, sanitar vəziyyətin bərpasında hərbi hissələrə praktiki köməklik göstərilir.***



Sanitar-epidemiologiya dəstəsinin rəisi-baş sanitar həkim tibb xidməti polkovnik-leytenantı Vüqar İbrahimov xidmət sahələrinin spesifikliyini və həssaslıq tələb etdiyini nəzərimizə çatdırdı. Qeyd etdi ki, 2018-ci ilin yay mövsümü ilə əlaqədar olaraq hərbi hissələrdə mövsümi xəstəliklərin qarşısının alınması məqsədilə monitorinqlər keçirilmiş və eyni zamanda laborator müayinələr aparılmışdır. Belə ki, SED laboratoriyasında iki yöndə - profilaktik və klinik-mikrobioloji müayinələr aparılır. Profilaktik müayinələrdən obliqat qrupda bakteriyagəzdiriciliyi aşkara çıxartmaq üçün bağırsaq infeksiyasının, eləcə də ekspress-test və immunoferment metodu ilə siflisin təyin olunması təşkil edilir.

Hərbi hissələrdə mütəmadi olaraq sudan, həmçinin, qida obyektlərindən götürülmüş nümunələrdə bakterioloji çirklənmənin aşkar olunması üçün sanitar-bakterioloji müayinələr aparılır. Cərrahiyyə yönümlü şöbələrin tibb personallarının qızılı stafilakok daşıyıcılığının aşkara çıxarılması məqsədilə əsnəkburundan götürülmüş yaxmaların bakterioloji tədqiqi, havanın bakterial florasının tədqiqi-sedimentasiya üsulu ilə laborator müayinələrin müvafiq qaydada aparıldığını bildirən tibb xidməti polkovnik-leytenantı V.İbrahimov bu istiqamətdə üzərilərinə düşən vəzifələrin icrasına məsuliyyətlə yanaşdıqlarını vurğuladı. O, hərbi şəhərciklərin ərazisinə, şəxsi heyətin məskunlaşma şəraitinə, qidalanmasına, su təchizatına, hamam-camaşırxana xidmətinin təşkilinə, habelə hərbi ticarət obyektlərinə sanitariya nəzarətini həyata keçirir, yoluxucu xəstəliklərin baş verməsi və yayılması zamanı xəstəlik ocaqlarında epidemioloji diaqnostika aparır, zərurət olduqda həmin xəstəliklərin yayılmasının məhdudlaşdırılması və xəstəlik ocaqlarının ləğvi məqsədilə rejim-məhdudlaşdırıcı tədbirlərin həyata keçirilməsi üçün təkliflərini verir.

Şəxsi heyətin təhlükəsiz ərzaq məhsulları ilə təmin olunması məqsədilə mütəmadi olaraq mərkəzi anbarlara daxil olmuş ərzaq məhsulları yoxlanılır və lazımi nümunələr götürülərək SED laboratoriyasında müvafiq müayinələr aparılır.

Bölgələrdə obliqat qrupların daha ixtisaslı müayinədən keçirilməsi və o cümlədən, qida obyektlərində sanitar vəziyyətin qorunub saxlanılmasında Sanitar-epidemiologiya dəstəsinin laboratoriya rəisi tibb xidməti mayoru Fərqanə Ramazanova, həkim-mikrobioloq tibb xidməti baş leytenantı Jalə Məhərrəmova, həkim-parazitoloq tibb xidməti leytenantı



Reyhan Zülfüqarovanın göstərdikləri xidməti yüksək qiymətləndirən şöbə rəisi, tabeliyində olan bütün tibb heyətinin vəzifə borclarının icrasına layiqincə yanaşdığını da söyləməyi unutmadı: "Tabeliyimdə olan heyətin həm tibbi, həm də hərbi hazırlığı məni, sözün əsl mənasında, qane edir. Zərif cinsin nümayəndələri olmasına baxmayaraq, bu gün onların hər birinin yüksək döyüş hazırlığı və mənəvi-psixoloji durumu istənilən tapşırığın uğurlu icrasına zəmin yaradır. Qida təhlükəsizliyinin təmin olunmasında həkim-gigiyenist tibb xidməti mayoru Könül Qasımzadə tərəfindən qida nümunələrinin götürülüb gigiyenik müayinələrin aparılması təmin olunur. Həmçinin, feldşer-laborantlar baş gizir Nuran Məmmədova, gizir Günel Quliyeva, gizir Səbinə İbrahimova da funksional vəzifələrinin icrasına məsuliyyətlə yanaşırlar. Onların hər birinə peşəkar əməklərinə görə təşəkkür edir, bundan sonra da öz üzərlərində çalışaraq, daim bilik səviyyələrini artırmağı diləyirəm".

**leytenant N.Ağayeva**

# HƏRBİ HİSSƏNİN ETİBARLI MÜHAFİZƏSİ TƏMİN OLUNUR

Hərbi hissənin döyüş hazırlığı dedikdə döyüş bayrağının, anbarların, o cümlədən hərbi şəhərciyin mühafizə və müdafiəsi yada düşür. 25032 saylı hərbi hissənin mühafizə və müdafiəsini həyata keçirən komendant bölüyünün komandiri baş leytenant Sənan Baxışov mühafizənin etibarlı təşkilinin bölüyün üzərinə düşən mühüm tapşırıqlardan olduğunu söylədi. Bildirdi ki, bu məsuliyyətli, eyni zamanda, mühüm vəzifəni yerinə yetirmək üçün bölmədə xidmət edən hər bir hərbi qulluqçunun fiziki baxımdan sağlam, atəş hazırlığından isə sərrast atıcı olması vacib amildir. Xidmətə cəlb olunan şəxsi heyətdə sadalanan keyfiyyətlərin qənaətbəxş olduğunu deyən baş leytenant S.Baxışov hərbi qulluqçularla keçirilən məşğələlərin əhəmiyyətini önə çəkdi. O, təlim və məşğələlərin təşkil olunub keçirilməsində bölük komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Rəfael Lətifovun əməyini qeyd etdi. Baş leytenant R.Lətifov isə, öz növbəsində, nəzəri məşğələlərin şəxsi heyətin bilik və bacarıqlarının artırılmasına, hərbi savadlarının genişlənməsinə təkan verdiyini dedi. O, yüksək fiziki göstəriciyə, geniş hərbi savada malik, eləcə də mənəvi cəhətdən sağlam olan hərbi qulluqçunun əzmkar döyüşçü olduğunu vurğuladı. Deyilənlərə misal olaraq, nümunəvi xidmətilə seçilən qarovul rəisi gizir Emin Mehdiyevin adını çəkdi. O, saatdarların postlarda ayıq-sayıqlığına, hərbi qulluqçuların asudə vaxtlarının səmərəli keçməsinə, onların vaxtlı-vaxtında qidalanmasına ciddi nəzarət edir.

Qarovul rəisinin köməkçisi çavuş Nurlan Abdullazadə, kiçik çavuş Orxan Sadıqov, əsgər Hüsü Bağırov, əsgər Əmrah Abbasov, əsgər Novruz Allahverdiyev, əsgər Bəxtiyar Mustafayev və əsgər Vüqar Məmmədli xidmətdə əzmkarlıq nümayiş etdirən hərbi qulluqçular kimi xarakterizə edildilər.







Bir sözlə, 25032 saylı hərbi hissə yüksək döyüş hazırlığına malik, əzmkar döyüşçülər tərəfindən etibarlı mühafizə olunur.

**kapitan T.Əlizadə**

## *ŞƏHİDLƏRİMİZ*

# VƏTƏNİN CƏSUR OĞLU...

**Azərbaycan tarixinin şanlı səhifələrindən biri Vətənimizin şəhidlik zirvəsinə yüksələn qeyrətli oğul və qızlarının müqəddəs torpağımız uğrunda savaş meydanlarında göstərdikləri qəhrəmanlıq nümunələridir.**

**Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda keçdiyi döyüş yolu məhz belə nümunələrlə zəngindir. Gələcəyimiz olan gənc nəslə örnək olan belə qəhrəmanlarımızdan biri də Daxili Qoşunların şəhid hərbi qulluqçusu əsgər Xalid Quliyevdir.**



ŞƏHİD XALİD QULİYEV

Xalid Hüseynxan oğlu Quliyev 1962-ci il sentyabr ayının 9-da Bakı şəhərində anadan olub. Atası Hüseynxan kişinin və Aynişan ananın halal zəhmətlə böyüdüb tərbiyə etdiyi 4 övladdan (Xalid, Faiq, Vaqif və Elxan) biri, eyni zamanda ailənin ilk nübarı və sevimlisi idi Xalid. Orta təhsilini Bakı şəhəri, Nizami rayonunda yerləşən 62 saylı orta məktəbdə (hazırda məktəb-lisey - A.Ə.) alıb.

Orta təhsilini başa vurduqdan sonra Xalid Nizami Rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Sovet Sosialist Respublikaları İttifaqının Almaniyada dislokasiya olunmuş hərbi hissələrinin birində iki il müddətli həqiqi hərbi xidmət keçib. Hərbi xidmətini bitirdikdən sonra doğma Vətənə qayıdan Xalid sənədlərini Azərbaycan Politexnik İnstitutuna (indiki Azərbaycan Texniki Universiteti - A.Ə.) verir və qəbul olunur. Hələ institutun sonuncu kursunda oxuyarkən, bilik və bacarığına görə Təhsil Nazirliyinin nəzdində fəaliyyət göstərən Təcrübə-sınaq zavodunda əvvəlcə baş mühəndis, ali təhsilini başa vurduqdan sonra isə baş direktor vəzifəsinə irəli çəkilir.

Torpaqlarımız erməni daşnakları tərəfindən işğala məruz qaldığı bir dövrdə isə X.Quliyev doğma Vətəninin müdafiəsində iştirak etmək və düşmənə layiq olduğu dərsi vermək üçün könüllü olaraq ordu sıralarına yazılır. Əvvəlcə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin, bir müddət sonra isə Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının tərkibində Ağdam və Ağdərə rayonları ərazisində, xüsusən də Aranzəminli, Pircamal, Naxçıvanik (indiki Naxçıvanlı - A.Ə.), Şelli və Manikli kəndlərinin erməni faşistlərindən azad olunması, eləcə də müdafiəsi uğrunda gedən döyüş əməliyyatlarında fəal iştirak edərək, düşmənin başına od-alov yağdırır.

**10 iyul 1992-ci il.** Ağdərə rayonunun Manikli kəndi ətrafında döyüş tapşırığını yerinə yetirib qayıdarkən əsgər Xalid Quliyevin idarə etdiyi BRDM (zirehli kəşfiyyat desant maşını - A.Ə.) düşmənin basdırdığı tank əleyhinə minaya toxunur. Nəticədə Xalid Quliyev, eləcə də BRDM-də olan digər şəxsi heyətdən - gizir İltifat Hacıyev, əsgərlərdən isə Çingiz Namazov, Eyvaz Məmmədov (2001-ci ildə vəfat edib - A.Ə.) və Volodya adlı döyüşçü ağır yaralanır. Yaralı döyüşçüləri Ağdamda yerləşən hərbi qospitala çatdırırlar. Lakin Xalidin yarası ağır olduğundan, bir müddət sonra gözlərini əbədi yumaraq şəhidlik zirvəsinə yüksəlir... İyulun 17-də isə qəhrəman döyüşçünün yaxın silahdaşı gizir İ.Hacıyev də həkimlərin cəhdlərinə baxmayaraq, aldığı ağır yaradan əbədiyyətə qovuşur...

Vətənin qəhrəman oğlu X.Quliyev Bakıda Şəhidlər Xiyabanında dəfn edilib.

Ailəli idi. Bir qız övladı yadigar qalıb. Xalid görkəmli müğənni, Azərbaycan Respublikasının əməkdar artisti Aybəniz Haşımovanın həyat yoldaşı idi. Ali təhsilli iqtisadçı olan qızı Aynişan Quliyeva isə Türkiyə Respublikası Bahçeşehir Universitetinin məzunudur.

Xeyli müddət keçməsinə baxmayaraq, Xalidin döyüşçü dostları onun qəhrəmanlığını bu gün də böyük iftixar hissi ilə xatırlayırlar.

Vaxtilə igid döyüşçü ilə birgə xidmət etmiş, hazırda Daxili Qoşunların veteranları olan e.o. polkovnik-leytenant İlqar Yusifovun və e.o. polkovnik-leytenant Yavər Orucovun, həmçinin, Bərdə rayonu, Nəcəfqulubəyli kənd sakini Çingiz Namazovun (Xalidlə birgə BRDM-də olan və ağır yaralanmış hərbi qulluqçu kimi yuxarıda adı qeyd olunub – A.Ə.) onun haqqında qürur hissi ilə söylədikləri fikirlər bunu bir daha təsdiq edir: "...Xalid Vətənini qəlbən sevən, el-obasına son dərəcə bağlı olan əsl döyüşçü idi. Fikri, xəyalı Vətən idi. Gözündə qorxu hissi qətiyyən yox idi. Xarakter baxımından mərd, cəsarətli və olduqca iradəli bir insan idi. Bununla yanaşı, çox mehriban və xoş xasiyyəti vardı. Bu müsbət xüsusiyyətlərinə görə Xalid bütün kollektiv arasında böyük nüfuz və hörmət qazanmışdı...".

Aybəniz xanımın mərhum həyat yoldaşının Vətənin ağır günlərində könüllü cəbhəyə yollanması barədə söylədiyi fikirləri bunu bir daha sübut edir: "...O zamanlar ölkəmizdə baş verən hadisələr Vətənimizin hər bir qeyrətli oğlu kimi, Xalidi də bərk narahat edirdi...

Bir gün qapımız döyüldü. Xalid bu vaxt işdə idi. Bir hərbçi gəlmişdi qapıya. Hərbi komissarlıqdan gəldiyini və Xalid Quliyevin bu evdə yaşadığını soruşdu. Qapını açdım. Əlində bir siyahı vardı. Binada yaşayan kişilərin ehtiyat siyahısını tutduqlarını və məndən bu siyahıya imza atmağımı istədi. Səbəbini soruşduqda, Qarabağda vəziyyətin ağır olduğunu və ola bilsin səfərbərlik elan olunaraq hamının cəbhə bölgəsinə göndəriləcəyini bildirdi. Siyahını imzaladım və getdi. Bu xəbərdən sanki yer-göy başıma fırlandı, az qala ürəyim partlasın. Dözə bilməyib xeyli ağladım. Bu vaxt Xalid zəng etmişdi. Səsimdən vəziyyətimin yaxşı olmadığını hiss etdi. Əvvəl bildirmək istəmədim, dedim evə gələrsən danışarıq. Xalid təkid edincə, hadisəni danışdım, o isə: "... mən də deyirəm, nə olub" - deyib güldü. Sonra "burada nə var ki? biz də gedərik müharibəyə" - dedi. Mən etiraz etdim və hara gedirsən soruşduqda, Xalidin qətiyyətlə: "Bəyəm biz müharibəyə gedənlərdən artığıq?" - deməsi ilə fikrində qəti olduğunu gördüm...



Bir müddət sonra böyük fərəh hissi ilə hərbi formada evə gəldi. Könüllü olaraq Daxili Qoşunların xüsusi təyinatlı dəstəsinə yazıldığını, sabah Qarabağa gedəcəklərini bildirdi. Beləliklə, Xalid canından çox sevdiyi Vətənin müdafiəsinə yollandı...".

Azərbaycan Respublikası Prezidentinin 30 iyun 2006-cı il tarixli Sərəncamı ilə əsgər Quliyev Xalid Hüseynxan oğlu respublikamızın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə cəsarət və igidlik göstərdiyinə görə **"Vətən uğrunda" medalı ilə** (ölümündən sonra) təltif edilib.

Bundan əlavə, ölümündən sonra dövri mətbuatda Daxili Qoşunların igid döyüşçüsü əsgər Xalid Quliyevin qəhrəmanlığını tərənnüm edən məqalə və şeirlər dərc edilib. Bir vaxtlar təhsil aldığı 62 saylı məktəb-liseyə, həmçinin, yaşadığı küçəyə Xalidin adı verilib.

"Xəzər" televiziyasının və "Oskar" Kino Şirkətinin birgə layihəsi olan "Ölümsüzlər" rubrikasında şəhid Xalid Quliyevin həyat və döyüş yoluna həsr olunmuş film çəkilib. Sain Qəhrəmanoğlunun quruluşçu rejissoru olduğu bu filmdə cəsur döyüşçünün anası Aynişan Quliyeva, həyat yoldaşı - əməkdar artist Aybəniz Haşımova, həmçinin, silahdaşı olmuş Yavər Orucov qəhrəmanla bağlı təəssüratlarını bölüşüblər. Real faktlar əsasında çəkilən filmdə ən maraqlı məqamlardan biri də ekran əsərində igid döyüşçünün həyat yoldaşı Aybəniz Haşımovanın obrazını məhz Xalid Quliyevin öz qızı Aynişan Quliyevanın canlandırmasıdır. Şəhid silahdaşımızın obrazını isə gənc şair və musiqiçi Tərlan Növrəsli yaradıb.

Bundan əlavə, müxtəlif illərdə dövlət sifarişi əsasında çəkilmiş və şəhid X.Quliyevin doğum günü, eləcə də vəfatının ildönümü ilə əlaqədar ölkəmizdə yayımlanan müxtəlif televiziya kanallarında real faktlara əsaslanan, qəhrəmanlıqlarla zəngin döyüş yoluna həsr olunmuş geniş materiallar nümayiş olunub.

Onu da qeyd edək ki, Daxili Qoşunlar üzrə "1992-1994-cü illərdə gedən döyüş əməliyyatları nəticəsində şəhid olmuş hərbi qulluqçuların siyahısı"nda X.Quliyevin adı 134 -cü sıra nömrəsi ilə 10 iyul 1992-ci il tarixdə gedən döyüşlər zamanı həlak olmuş hərbi qulluqçu kimi qeydə alınıb.

Vətənimizin keşiyində mətin dayanaraq, canlarını müqəddəs torpaqlarımız uğrunda qurban verən Xalid Quliyev kimi igid, qəhrəman oğullarımızın şərəfli ömür yolu bugünkü gənc və yeniyetmələrimiz üçün əsl örnəkdir. Onun ömür yolu qısa olsa da, döyüş yolu qəhrəmanlıq nümunələrilə zəngindir. Xalid yurdumuza göz dikən neçə-neçə düşmən yaraqlısını məhv etməklə mənfur niyyətlərini gözlərində qoyub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sözləri ilə desək, şəhid olmuş qəhrəmanlarımızın qanı yerdə qalmayacaq: **"Biz müharibə və atəşkəs vaxtı itki vermişik, şəhidlərimiz olub. Vətən, torpaq uğrunda həlak olmuş şəhidlərin qarşısında baş əyirik. Onların qanı yerdə qalmayacaq və qalmır, şəhidlər ölmür. Onlar bizim qəlbimizdə əbədi yaşayır!"**.

**Allah rəhmət eləsin!**

**kapitan A.Əhmədov**

4_Layout 1 13.09.2018 16:32 Page 1



# BAKININ ERMƏNİ-BOLŞEVİK İŞĞALINDAN AZAD EDİLMƏSİNDƏN 100 İL ÖTÜR

1918-ci ilin mayın 28-də Azərbaycanın müstəqilliyinin elan olunmasına baxmayaraq, Bakı və ətraf rayonlar hələ də erməni-bolşevik işğalı altında idi. Belə olan halda Azərbaycanın dövlət müstəqilliyini təsəvvür etmək çox çətin görünürdü. Müstəqilliyə təzə qovuşmuş, beynəlxalq aləmdə hələ tanınmayan gənc dövlətimizin isə ərazi bütövlüyünü təmin etmək imkanları yetərincə deyildi. Belə bir şəraitdə özünün çox ağır durumuna rəğmən, Osmanlı Türkiyəsi Azərbaycanın ərazi bütövlüyünü təmin etmək məqsədilə Nuru Paşanın komandanlığı ilə Qafqaz İslam Ordusunu Azərbaycana göndərdi. Avropa dövlətlərinin türk qoşunlarının Azərbaycana gəlməsinə etiraz etməsinə və müxtəlif yollarla təzyiqlər göstərməsinə baxmayaraq, qardaş köməyini əsirgəməyən, ölkəmizi tək qoymayan Osmanlı Türkiyəsi 1918-ci ilin avqust-sentyabr aylarında öz tarixi vəzifəsini şərəflə yerinə yetirdi. Sentyabrın 15-də Qafqaz İslam Ordusu və Azərbaycan Korpusu qarşısına qoyduğu missiyanı uğurla başa çatdıraraq, Bakını işğalçılardan təmizləməklə Azərbaycan dövlətçiliyinə qardaş töhfələrini verdi, Azərbaycan xalqını darda qoymadı.

Təkcə avqustun əvvəllərindən sentyabrın 15-dək Bakı uğrunda gedən döyüşlərdə 5-ci Qafqaz diviziyası 1130-dək şəhid verib. Ümumiyyətlə, Qafqaz İslam Ordusu sıralarından iyunun ortalarından sentyabrın 15-dək Azərbaycanın azadlığı uğrunda döyüşlərdə dörd mindən çox əsgər və zabit şəhid olub. Bu döyüşlərdə Azərbaycan könüllü dəstələrinin də itkiləri kifayət qədər idi.

Qəhrəman türk əsgərlərinin şücaəti və qanı bahasına Bakı və digər rayonların azad olunması ilə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti öz hakimiyyətini ölkənin bütün hüdudlarında təmin etdi.



Azərbaycan hökumətinin başçısı Fətəli xan Xoyski Bakının azad edilməsi münasibətilə Nuru Paşaya yazırdı: **“Azərbaycanın baş kəndi olan Bakının düşməndən təmizlənməsi münasibətilə millətimin adından dünyanın ən cəsur və soylu əsgəri olan türkün oğullarına minnətdar olduğumuzu ərz etməklə iftixar edirəm. Millət sizə minnətdardır”**.

Beləliklə, 1918-ci ilin martından başlayaraq erməni daşnaklarının və bolşeviklərin Bakıda və Azərbaycanın digər bölgələrində birgə həyata keçirdikləri qanlı qırğınlara və özbaşınalığa son qoyuldu. Məlum olduğu kimi, ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırım siyasətinin məqsədi məhz xalqımızı cismən məhv etmək və “Böyük Ermənistan” xülyasını gerçəkləşdirmək idi. Amma türk qardaşlığı bu mənfur planın reallaşmasına imkan vermədi.

Türk ordusunun Bakını bolşevik-daşnak işğalından azad etməsi şəhərdə əsl bayrama səbəb oldu. Məşhur milyonçu və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev türk ordusunun şərəfinə təntənəli ziyafət təşkil etdi. H.Z.Tağıyev türk ordusunun komandanı Nuru Paşaya və onun qəhrəman sərkərdələrinə hədiyyələr təqdim etdi.

Möhtəşəm və tarixi qələbədən iki gün sonra, sentyabrın 17-də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin paytaxtı Gəncədən Bakıya köçürüldü.

Amma Antanta dövlətlərinin Osmanlı Türkiyəsinə təzyiqi getdikcə daha da artırdı. Ona görə də qısa müddətdən sonra türk qoşunları Bakını tərk etməli oldular.

1918-ci il sentyabrın 15-də Bakının azad olunması Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı zəminində müstəsna əhəmiyyət daşıyan böyük hadisədir. 70 illik sovet hakimiyyəti illərində bu hadisənin məqsədyönlü olaraq yanlış kontekstdə izah olunmasına baxmayaraq, Azərbaycan xalqı türk əsgərinin qəhrəmanlığını heç vaxt unutmadı, onu qəlbində yaşatdı.

Hər il sentyabrın 15-də təkcə Bakıda deyil, Şamaxıda, Göyçayda və digər rayonlarda ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan türk əsgərlərinin məzarları dövlət səviyyəsində ziyarət olunur.

**Hər il Şəhidlər Xiyabanında türk əsgərlərinin xatirəsinə ucaldılmış abidənin önündə anma mərasimi keçirilir. Aradan uzun illər keçməsinə baxmayaraq, Türkiyə ordusu tərəfindən göstərilən qardaşlıq köməyi heç vaxt unudulmayacaq, Azərbaycan xalqı tərəfindən daim minnətdarlıq hissi ilə xatırlanacaq.**

*NÜMUNƏVİ XİDMƏT*

## DAXİLİ QOŞUNLARIN YETİRMƏSİ OLAN BACARIQLI ZABİT

**25033 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsində bölmə komandiri kapitan Ramin Pirməmmədov hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. Daxili Qoşunların öz yetirməsi olan zabit xidmət etdiyi hərbi kollektivdə hörmət qazanıb.**

O, 21 fevral 1988-ci ildə Qusar rayonunun Ləyərqışlaq kəndində anadan olub. 2006-cı ilin aprel ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Daxili Qoşunların 25032 saylı hərbi hissəsində hərbi xidmətə başlayıb. Sonra 12318 saylı hərbi hissədə hərbi xidmətini davam etdirərək, komendant bölüyündə atıcı vəzifəsinə təyin olunub. 2007-ci ilin fevral ayında isə “kiçik çavuş” hərbi rütbəsi verilməklə manqa komandiri vəzifəsinə irəli çəkilib. Kiçik komandir kimi bacarıqla xidmət edib. Taqım komandirinin müavini vəzifəsinə və “baş çavuş” hərbi rütbəsinədək yüksəlib. 2007-ci ilin oktyabr ayında müddətdən artıq həqiqi hərbi xidmətə keçirilib. 17072 saylı hərbi hissənin ayrı yerləşən patrul taborunun xüsusi təyinatlı qrupunda yarımqrup komandiri vəzifəsinə təyin edilib.

Hərbi xidmətdə əzmkarlığı, müsbət fərdi keyfiyyətləri nəzərə alınaraq, onun hərbi təhsilə yiyələnməsi və zabit rütbəsinə yüksəlməsi məqsədəuyğun bilinib. 2008-ci ilin avqust ayından Daxili Qoşunların o vaxtkı Orta İxtisas Hərbi Məktəbinin zabit hazırlayan kursuna qəbul olunub. 2010-cu ilin iyul ayında həmin məktəbi bitirib və 99713 saylı hərbi hissəyə patrul taborunda taqım komandiri vəzifəsinə təyinat alıb. Artıq zabit kimi hərbi xidmətini davam etdirməsi onun özünə tələbkarlığını, məsuliyyətini daha da artırıb. 2011-ci ilin sentyabr ayında qardaş Türkiyə Respublikasının Jandarm Baş Komandanlığının Ankaradakı Tədris Mərkəzində Zabit Təkmilləşdirmə Kursuna göndərilib. Bu kursu uğurla başa vuraraq müasir hərbi bilikləri mənimsəyib.

2012-ci ilin sentyabr ayından 25033 saylı hərbi hissənin şəxsi heyətinin sıralarında olan zabitə 2013-cü ilin iyun ayında “baş leytenant”, 2017-ci ilin iyun ayında isə “kapitan” hərbi rütbəsi verilib. Bu hərbi hissədə bir müddət xüsusi vasitələrin tətbiqi dəstəsinin bölmə komandirinin müavini vəzifəsində xidmət etdikdən sonra hazırkı vəzifə ona həvalə olunub. Öz işində komandanlığın ona göstərdiyi etimadı doğrultmağa çalışır. Tabeliyindəki şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi üçün öz bilik və təcrübəsini əsirgəmir. Bölmənin qarşısına qoyulan xidməti tapşırıqların uğurla yerinə yetirilməsinə şəxsi heyətin səfərbər olunmasında komandirin



şəxsi nümunəsinin nə qədər vacib rol oynadığını düzgün qiymətləndirir. Rəhbərlik etdiyi bölmənin xüsusiyyətlərini daim nəzərə alaraq öz fəaliyyətini qurur, nizam-intizamın möhkəmləndirilməsinə, təlim prosesinin keyfiyyətli təşkilinə ciddi diqqət yetirir, hərbi qulluqçulara həm tələbkar, həm də qayğıkeş yanaşma da onu bir komandir kimi fərqləndirən əsas məqamlardandır.

Bu il hərbi hissədə keçirilən inspeksiya yoxlaması zamanı kapitan R.Pirməmmədovun komandiri olduğu bölmə hərbi hissə üzrə qabaqcıllardan olub, müsbət göstəricilər nümayiş etdirib. Kapitan R.Pirməmmədov şəxsi heyətə uğurlu nəticələrdən heç vaxt arxayınlaşmamağı aşılayır, hərbi xidmətdə döyüş hazırlığının daim qorunub saxlanmasının əhəmiyyətini konkret dəlillərlə izah edir.

Qeyd edək ki, kapitan R.Pirməmmədov bu günədək komandanlıq tərəfindən bir neçə dəfə mükafatlandırılıb. Zabit şərəfini və Daxili Qoşunların nüfuzunu uca tutur.

**25033 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

*metodiki vəsait*

## KİBERTƏHLÜKƏSİZLİYİN ƏSASLARI, TEXNOLOGİYA VƏ VACİB OLAN NÜANSLAR

***Kibercinayətkarlığın son dərəcədə artması dünyada dövlət idarəçiliyi, milli təhlükəsizlik, bank, nəqliyyat və digər sistemlərin təkmilləşdirilməsini, kibermüdafiə tədbirlərinin genişləndirilməsini tələb edir.***

*(əvvəli ötən sayımızda)*



ABŞ-ın Milli Təhlükəsizlik Agentliyinin məxfi sənədlərinin birində növbəti əsas irimiqyaslı münaqişənin kiberməkanda başlayacağı barədə məlumatlar yer alır. ABŞ real olaraq kibermüharibəni başlayan yeganə dövlətdir. ABŞ-ın keçmiş prezidenti Obamanın İranın minlərlə nüvə sentrifuqalarını sıradan çıxarmaq məqsədilə kiber hücum həyata keçirilməsinə dair əmr verməsi heç kimə sirr deyil. ABŞ hakerləri kompüter virusları ilə güclü texnoloji hücum nəticəsində İrana böyük maddi zərər vuraraq nüvə proqramını iki il geriyə ata bildilər. İndi bu əməliyyat məlumatlarını, yəni “kiber qüvvələr”in əməliyyatlarını əvvəlki kimi ciddi-cəhdlə kimsə gizlətməyə çalışmır. 2012-ci ildən isə Suriyada internet ABŞ tərəfindən bloklanıb. ABŞ ordusunda müstəqil qoşun növü kimi üç il əvvəl yaradılan Kiber Qüvvələrin təxminən 20 min nəfərə yaxın şəxsi heyəti olduğunu qeyd etmək yerinə düşər. Xatırladıram ki, kiber müharibənin əsas taktiki və strateji istiqamətləri ABŞ-ın Hərbi Doktrinasının tərkib hissəsidir.

Artıq dünyanın bir çox orduları kiber hücumlara qarşı praktiki döyüş təlimlərini döyüş hazırlığı proqramlarına daxil edirlər. 2008-ci ildə yaradılan NATO-nun Kiber Təhdidlərə Qarşı Mübarizə üzrə Təcrübə Mərkəzinin (CCDCOE) keçən il təşkil etdiyi təlimlər zamanı iştirakçılar hətta “hərəkətdə olan sürət qatarını dayandırmağa çalışırdılar”. Təlim iştirakçıları olan hakerlərdən bir qrupu uğur qazandı: onlar qatarı dayandırdı, idarəetmə sistemini pozdular və mühərriki bloklaya bildilər. Bu təlimlərdə iştirak edən hakerlər yalnız dəvətnamə ilə gəlirlər. Qonaqların adı və sayı kiber manevrlərin "həssas təbiəti" səbəbindən gizli saxlanılır. Yalnız "qarşıdurma"nın ümumi məqsədi məlumdur: düşmən şəbəkəsinin xəritəsini tərtib etmək, həssas bir nöqtəni tapmaq və oradan şəbəkəyə nüfuz etməklə onun idarəetməsini ələ keçirmək. Daha öncə keçirilən buna bənzər təlimlərdən birində ABŞ və Böyük Britaniyanın hakerləri bir-birinin informasiya sisteminə “hücum” etdilər. Təlimlərə sabiq prezident Barak Obama və sabiq baş nazir Devid Kemeron tərəfindən ən yüksək səviyyədə icazə verilməsi kiber manevrlərə nə qədər önəm verilməsinin sübutudur.

Bu tipli iki və ya çoxtərəfli təlimlərin, müxtəlif aidiyyəti qurumlar tərəfindən birgə həyata keçirilməsi, kibertəhlükəsizlik üzrə yüksək ixtisaslı mütəxəssislərin yetişdirilməsində və onların bacarıqlarının real dəyərləndirilməsində müstəsna rol oynaya bilər. Təklifin aidiyyəti qurumlar tərəfindən nəzərə alınacağına ümid edirəm.

Dünyanın bir parçası olan Azərbaycan da müasir informasiya-kommunikasiya texnologiyalarının (İKT) geniş tətbiqinə, bu sahədə davamlı kibertəhlükəsizlik tədbirlərinin həyata keçirilməsinə ciddi diqqət yetirir. Müxtəlif zamanlarda kiber və informasiya təhlükəsizlik məsələlərinə həsr olunan beynəlxalq tədbirlərdə iştirak edən Azərbaycan Respublikasının rəsmi mövqeyi bu sahənin inkişafına xüsusi diqqət yetirilməsindən və onun prioritet istiqamət elan edilməsindən ibarət olub. Bakı kibertəhlükəsizlik və informasiya təhlükəsizliyi məsələlərində Avropa Şurası, Avropa İttifaqı, NATO, Beynəlxalq Elektrik Rabitəsi İttifaqı və digər beynəlxalq təşkilatlarla fəal qarşılıqlı əlaqələr saxlamaqda davam edir. Bu sahədə hüquqi bazanın formalaşdırılması istiqamətində Azərbaycan beynəlxalq konvensiya və proqramlara qoşulub və daxili qanunvericilik bazasını da təkmilləşdirib. Belə ki, Azərbaycan 2008-ci ildə Avropa Şurasının “Kibercinayətkarlıq haqqında” Konvensiyasını imzalayıb, sənəd 2010-cu ildə ratifikasiya edilib. Ölkəmiz həmçinin “Şərq tərəfdaşlığı – Avropa Şurası mexanizmi” proqramı çərçivəsində həyata keçirilən kibercinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq layihəsində fəal iştirak edir.

Respublikada informasiya proseslərinin mühafizəsi, sabitliyi və fasiləsizliyi, dövlət orqanlarının informasiya ehtiyatlarının qorunması, bu sahədə təhdidlərin qarşısının alınması, təhlili və qabaqlanması üçün dövlət və qeyri-dövlət informasiya infrastrukturu subyektlərinin, onların istifadəçilərinin fəaliyyətinin əlaqələndirilməsi, kibertəhlükəsizlik sahəsində risklərin qiymətləndirilməsi və idarə olunması, ümummilli hazırlığın və maarifləndirmənin təmin edilməsi məqsədilə 2012-ci il sentyabrın 26-da “İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri haqqında” Azərbaycan Respublikası Prezidenti tərəfindən Fərman imzalanıb. Fərmana əsasən, Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi və Azərbaycan Respublikası Rabitə, Nəqliyyat və Yüksək Texnologiyalar Nazirliyi yanında əlaqələndirici qurum olan Elektron Təhlükəsizlik Mərkəzi yaradılıb.

2014-cü il fevralın 10-da Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Azərbaycan Respublikasında dövlət sirrinin mühafizəsi sisteminin inkişafına dair 2014-2018-ci illər üçün Dövlət Proqramı” təsdiq edilib.

Bu gün kibertəhlükəsizlik, onlayn təhlükəsizlik, şəbəkələrin etibarlılığı üçün həlledici təminat məsələləri ən mühüm prioritet istiqamətlərdən biri kimi dəyərləndirilir. Bu sahədə effektiv beynəlxalq əməkdaşlıq, çoxtərəfli dialoqun nailiyyəti, uğurlu qərarların qəbulu və bu qərarların həyata keçirilməsi məqsədilə hər il regional və qlobal səviyyədə dövlət, qeyri-dövlət və beynəlxalq qurumlar tərəfindən müxtəlif tədbirlər həyata keçirilir.

**Göründüyü kimi, kibertəhlükəsizlik çox geniş, aktual problemdir və Azərbaycan dövləti bu sahədə mövcud olan boşluqları və təhlükələri vaxtında dəyərləndirərək müvafiq addımlar atır.**

**Ə.Verdiyev**
**hərbi ekspert (ordu.az)**

## HƏRBİ XƏBƏRLƏR

*-YENİLİKLƏR -*



### Türkiyə “Akıncı” hücum PUA-nı təkmilləşdirəcək

Ordu.az xəbər verir ki, Türkiyə Hücum PUA Təkmilləşdirilməsi Layihəsi çərçivəsində təxminən 1,5 ton faydalı yükgötürmə qabiliyyətinə malik PUA-nın dizayn fəaliyyətlərini yaxın günlərdə tamamlayacaq.

Bununla yanaşı, qarşıdakı dövrdə silahlı “Hürkuş” təyyarəsinin təkmilləşdirilməsi və seriyalı istehsalına dair tenderin tamamlanması və onu həyata keçirəcək firmanın müəyyənləşdirilməsi gözlənilir.

Eyni zamanda, 2030-cu illərdən sonrakı dövrdə döyüş təyyarələrinə duyulan ehtiyacın milli məhsullarla qarşılanması məqsədilə Türkiyə Milli Döyüş Təyyarə Təkmilləşdirilməsi Layihəsi - Dövr-1, Mərhələ-1 Sazişinin tətbiqinə başlanacaq.



### “Almaz-Antey” firması S-400 raket sistemlərinin yeni dəstinin çatdırılmasını planlaşdırılan tarixdən öncə həyata keçirib

Ordu.az xəbər verir ki, bu barədə kompaniyanın mətbuat xidməti məlumat yayıb.

“Almaz-Antey” planlaşdırılan tarixdən öncə Rusiya Müdafiə Nazirliyinə S-400 yer-hava raket sistemlərinin yeni dəstinin çatdırılmasını həyata keçirib”, - deyə məlumatda qeyd olunub.

Məlumata görə, təhvil-təslimlə bağlı rəsmi mərasim Həştərxan regionundakı “Kapustin Yar” təlim poliqonunda baş tutub.

Firmanın Rusiya Müdafiə Nazirliyi ilə birlikdə həyata keçirdiyi sınaqlar uğurla həyata keçirilib və sistemlər şərti hava hədəflərini dəqiq vurub.

## Allah rəhmət eləsin

Daxili Qoşunların Komandanlığı polkovnik-leytenant Etibar Yusubova atasının vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Komandanlığı leytenant Nigar Ağayevaya əmisinin vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

67987 saylı hərbi hissənin komandanlığı mayor Şamxal Babayevə dayısının vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17072 saylı hərbi hissənin komandanlığı kapitan Əli Ağayevə atasının vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: A.Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000